

## Rəssamlarımızın yaradıcılığında

# Abşeron mövzusu

*Abşeron mövzusuna Müslüm Abbasov daimi müraciət edirdi. Öz yaradıcılığı ilə M.Abbasov sanki öz doğma şəhərinə, onun küçələrinə, həyətlərinə, ürəyə yaxın, əziz olan Abşerona məhəbbətini bildirir. Rəssamın istedadının həcmini təyin etmək qeyri- mümkündür, çünki o, lap sadə şeylər haqqında çox gözəl danışırdı.*

Rəngdə həm xətti, həm ideyanı, həm əhval-ruhiyyəni axtarmaq lazımdır. Öz əsərlərinə rəssam hədsis dərəcədə təvazökardı. Nadir hallarda o, alovlu rənglərdən istifadə edir - sarı, narıncı, purpur və əgər belə rənglər varsa, onlar yaşıl, bənövşəyi tonlarla yumşalırlar, bu tonlar isə öz növbəsində mavi çalarlara keçid alırlar. Hətta natürmortlarda öz lirizmi ilə diqqəti cəlb edirlər. Bunlar 1980-ci illərə qədər yaradılan kompozisiyalar deyil. "İnşaatçılar" uzaq keçmişdə qalıblar, qabaqda isə müxləlif kompozisiyalar var: "Abşeronda", "Rəssamın emalatxanasında", "Kətan", "Şəhər", "İstirahət", "İçərişəhər", "Analıq", "Bahar", "Lənkəran motivləri", "Natürmort", "Həyət", "Qəsr", "Kompozisiya" və s. əsərləri. Fərman Qulamovda mövzu maraqlı tərzdə həll olunur. Köklü "abşeronçu" olmayaraq, Fərman Qulamov Abşeronun ab-havasını yüksək dərəcədə duyurdu.F.Qulamov Abşeron haqqında fikrə daha çox yaxınlaşır, nəinki başqaları. İlk növbədə Abşeron, onun ən gözəl vaxtı olan yayın parlaq rəngləridir. Mənzərə, hansısa bir küçəni təsvir edərək, tamaşaçını qəm, qüssəyə daxil etmir, əksinə kompozisiya sanki "qışqırır"- "Baxın bu Abşeronda parlaq əlvan rənglər gün ərzində bir-birini əvəz edirlər - səhər - qızılı-mavi, axşam-narıncı-alovlanan, gecə-göy-bənövşəyi". "Abşeron" günəşinin şüalarında torpaq, dəniz, səma rənglərini dəyişir.

"Natürmortun" süjeti daha çox nağılvari, şərqsayağı və istidir. Bu ikinci planda dağlardı: ön planda isə meyvə qablarının əhatəsində olan zolaqlı balışlardı. Üfüqi əsər və qeyri-adi natürmort. Bu əşyalar xalqın, millətin hafizəsidir, hər bir bağın atributlarıdır. Kompozisiya ona görə maraqlıdır ki, burada əşyalar tanış olmaq üçün düzülməyiblər, onlar həyatı müşahidə etmək üçün lazımdırlar, çünki burdan həyat keçir. Horizontun sol və sağ tərəfində yığılmış əşyaların kölgələri girişi parlaq günəş işığı ilə çərçivəyə alırlar və sanki içəri daxil olmaq üçün bir yol yaradırlar. Belə təəssürat yaranır ki, indicə kimsə qayıdıb, boşqabda qalan meyvələrin dadına baxacaq və istirahət edərkən Abşeronun mavi vüsətlərini seyr edəcək. Bu kompozisiyada, burda yaşayan xalqın ruhu canlanır və bu genetik hafizə doğma vüsətlərə ölməzlik verir. Şərqin ruhu "İki qadın və çıraq" kompozisiyasında da çox yaxşı öz əksini tapmışdır.

Şərqin gecələrini, Azərbaycan xalqının evlərinin gündəlik həyatını simvolizə edən çıraq həm də qadınların örtükləri ilə zənginləşir. Bu qadınların pıçıltısı sanki eşidilir; onları axşamın sakitliyi və çırağın işığı sehirli dünyaya aparır. Bir neçə cizgilərdə verilmiş sifətlərdə maraqlı söhbətin gedişi duyulur. Çox güman ki, qadınlardan biri gözlənilməyən xəbər gətirib və onu çıraq ilə qarşılayan ikinci qadın isə söhbətdən doya bilmir. Qadın elə indicə evə daxil olub, çünki əgər o, çoxdan otaqda olsaydı, onda o, çarşabını çıxarmış olardı. Əsərdə, ancaq iki obraz var, lakin milli koloritin ruhu çox güclüdür. Rəssam yenidən kompozisiya həllini hərəkətdə tapır. O, Şərq qadını ilə tanışlığı muzey eksponatı və yaxud hansısa millətin əşyası kimi nümayiş etdirmək istəmir. O, tamaşaçını iki nəfərin arasında olan söhbətə qulaq asmağa dəvət edir və hətta lazım olsa danışmağa qoyur. Və ancaq hadisələrin mərkəzində olarkən, tamaşaçı qadınları görmək, onların xasiyyətinə bələd olmaq şansını qazanır və onların hər birinə qarşı məhəbbət hissi oyanır.



F.Qulamovun yaradıcılığı onunla maraqlıdır ki, tamaşaçı hər zaman baş verən hadisənin gözlənilməyən şahidinə çevrilir, sanki o, nağıllar, sərgüzəştlər aləminə daxil olur.

O, sanki kətanın o biri tərəfində qala bilmir, kətanın daxilindədir.

1980-ci illər F.Qulamovun yaradıcılığını adi lirikadan tanınılmayan romantikaya keçid kimi xarakterizə edirlər.

Lakin hardan birdən-birə, məsələn "Sahil" kimi əsərlər meydana gəlirlər.

Bu kimi əsərlər psixoloji əsərlərdir. İnsan və onun varlığı psixoanalitikin qəbulunda olduğu kimi qəbul olunur. Hər bir insanın ürəyinin dərinliyində əzəmətli təbiətlə omonimiyaya inam var, hansı ki, məhəbbətə, mərhəmətə vadar edir. Üç heyvanabənzər varlıqlar əti yeyirlər və bundan sonra ancaq sümüklər qalır. Dözülməz ağrı sanki əsərin mərkəzindən çıxır. İlk əvvəl süjet nifrət hissi oyadır, lakin təsviri incəsənətdə uydurma prinsipinə əks durmağa qarşı, rəssamın cəsarəti əsəri başqa bir nöqtei-nəzərdən göstərir. Bu əsər həyat, insanlar haqqında fəlsəfi fikirlər oyadır: təsviri incəsənət - ruhun musiqisidir, həyatın fəlsəfəsidir. Axı necə insanı tanımadan, onunla söhbət etmədən, həmin insan üçün yaratmaq olar. Beləliklə, bir təmayülün daxilində başqa "fikirləşən rəngkarlıq" doğulur.

"Səhər", "Səhər gülü" kompozisiyaları mavi, sarı, qəhvəyi, qırmızı tonlarda işləniliblər.

Rəssamın ən maraqlı əsərlərindən biri "Rəssam R.Babayev"dir hansı ki, lirik-romantik təmayülü müəyyən edir. Rəssam R.Babayevi Abşeronsuz, onun qızılı qumlarından, mavi səmasından, göy dənizindən ayrı təsəvvür edə bilmir. Rəssam bunu nə cür aydınlaşdırır? O, R.Babayevi Abşeron evlərinin, təbiətinin fonunda təsvir edir. İnsanlar harasa yox olurlar, ancaq təbiətin qoxusu qalır. Axşamlar Abşeronda olan uzun kölgələr, alovlanan qurub təsvir olunan rəssamın ruhunun vəziyyəti ilə yaxındır. Bu yaxınlıq çox incə tərzdə əks olunub. Ön planda stol yerləşir, onun üzərində isə budaq və müxtəlif formalı əşyalar var. Rəssamın əlləri diqqəti cəlb edirlər, onlar bilərəkdən döndəriliblər və bu hərəkətdə hər şey ilə oxşarlıq və fərqlilik var. Bu təkrar edilməzlilik, fərqlilik əslində rəssamın əlləri yox, onun ruhudur, onun qeyri-adiliyidir, hansı ki, ictimaiyyətlə birtərəfli qəbul olunmurdu. Baş hissəsi tamaşaçıya qarşı yönəldilib, R.Babayev dünyaya açıq, bir qədər fikirli baxır.

"Bayram ərəfəsində" kompozisiyası, qadına qarşı hədsiz məhəbbəti əks edirdi. F.Qulamovun lirikası dərindir, sehirlidir.

Abşeron mövzusu Mir Nadir Zeynalovun işlərində də səslənir. "Mavi mənzərə", "Xoruzun səhər banlaması", "Ağacın kölgəsində", "Bilgəh mənzərəsi", "Bahar", "Külək", "Yay istisi", "Sarı kompozisiya", "Xatirə", "Sevincli gün" və s. əsərlər (1979-1980-ci illər) lirika ilə dolu olaraq, azadlığı dəstəkləyir, yüksəldirlər və birdən-birə rəssam öz istiqamətini dəyişdirərək, azadlığı başqa cür başa düşməyə başlayır. O, azadlığı onun absolyutunda görür və eşidir. Əşyaların varlığını başa düşərkən o, onları öz şəxsi substansiyalarından qopardır və təsdiq edir ki: "Rəssamın əsas məsələsi şah əsərlərinin yaradılmasında deyil, kainatda olan heç zaman qocalmayan böyük həqiqətlərin dərk edilməsindədir".

M.Abbasov, F.Qulamov, M.Zeynalov nadir rəssamlardandırlar, hansı ki, Azərbaycan təbiətini hiss etməyi bacarırlar və yer üzündə olan bütün varlığın təbiətini onun bədii əhəmiyyətinin açılmasında görürlər.

**Kübraxanım Əliyeva**